**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

10.01.2019-cu il

**Biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində bəzi tikinti obyektlərinin tikintisi və istismarına icazələrin verilməsi üzrə aparılmış islahatlarla bağlı İcra və Kommunikasiya Planı**

| Sıra №-si | Görüləcək işlər | İcraçı qurumlar | İşçi qrupu üzrə məsul şəxslər | Hədəf qrupları (benifisiarlar) | Son icra müddəti |
|---|---|---|---|---|---|
| **1.** | **“Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli Fərmanının icrası sahəsində (o cümlədən inzibatçılığın təkmilləşdirilməsi)** | | | | |
| 1.1. | Tikintiyə icazə və tikinti obyektlərinin istismarına icazə verilməsi işinin adıçəkilən fərmanla təsdiq edilmiş Qaydanın tələblərinə uyğun təşkilinin təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | Bütün qrup üzvləri-müvafiq fəaliyyət sahələri üzrə | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | Mütəmadi |
| 1.2. | Qanunvericilikdə nəzərdə tutulmayan sənədlərin tələb olunması hallarının qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları | Bütün qrup üzvləri-müvafiq fəaliyyət sahələri üzrə | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | Mütəmadi |
| 1.3. | Bakı şəhəri üzrə “Bir pəncərə” sisteminin işinin təkmilləşdirilməsi, tikintiyə icazə üçün müraciətlərin elektron formada qəbulu və təqdim edilmiş sənədlərin aidiyyəti orqanlara elektron göndərilməsinin təmin edilməsi üzrə müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | D.Dövlətxanov | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | 25.01.2019 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.4. | Ölkə üzrə tikintiyə icazə üçün elektron müraciət sisteminin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | M.Fətullayev | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | 28.06.2019 (sonradan davam edəcək) |
| 1.5. | Ölkə üzrə tikintiyə icazə üçün elektron müraciət sisteminin tikintiyə icazə icraatında iştirak edən digər qurumların elektron informasiya sistemlərinə, "Elektron hökumət" və "Lisenziyalar və icazələr" portallarına inteqrasiyası ilə bağlı tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | M.Fətullayev | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər | 28.06.2019 (sonradan davam edəcək) |
| 1.6. | Yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işlərini əks etdirən təqdimat materiallarının (xüsusilə ləğv edilmiş prosedurları vurğulamaqla vizual təsvirlərlə sadə formada prezentasiya materialı şəklində) hazırlanması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim edilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | D.Dövlətxanov | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər, KİV, konsaltinq şirkətləri | 14.01.2019 |
| 1.7. | Yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işlərinə dair buklet materiallarının hazırlanması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | M.Cəbrayılov | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər, KİV, konsaltinq şirkətləri | 25.01.2019 |
| 1.8. | Yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işləri üzrə video çarx üçün materialın hazırlanması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | M.Cəbrayılov | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər, KİV, konsaltinq şirkətləri | 11.02.2019 |
| 1.9. | Tikinti sahəsində yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işləri ilə bağlı hazırlanmış təqdimat materiallarının icraçı qurumların rəsmi internet səhifələri və digər informasiya resursları vasitəsi ilə yayımlanması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərsu" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İB | İşçi qrupun bütün üzvləri | Tikinti sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər, KİV, konsaltinq şirkətləri | Yanvar-fevral 2019 |

| 2. | Aidiyyəti qurumların müvafiq sahə üzrə əməkdaşları və bu sahəyə məsul şəxslərlə iş sahəsində | | | | |
|---|---|---|---|---|---|
| 2.1. | Yeni qaydanın tətbiqi ilə bağlı təlim keçirəcək (təlimlərə cəlb olunacaq) aidiyyəti dövlət qurumlarının əməkdaşlarının (təlimçilərin) müəyyənləşdirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərsu" ASC, "Azərişiq" ASC, "Azəriqaz" İB | D.Dövlətxanov | Aidiyyəti dövlət qurumlarının əməkdaşları | 15.01.2019 |
| 2.2. | Təlim keçirəcək əməkdaşlar (təlimçilər) üçün müvafiq təlimlərin keçirilməsi (təlimçilərin təlimi) | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərsu" ASC, "Azərişiq" ASC, "Azəriqaz" İB | D.Dövlətxanov | Aidiyyəti dövlət qurumlarının əməkdaşları | 17.01.2019<br>23.01.2019 |
| 2.3. | Bu Planın 2.2-ci bəndi üzrə təlimlərə cəlb olunmuş əməkdaşlar (təlimçilər) tərəfindən dövlət qurumlarının aidiyyəti əməkdaşlarına təlimlərin keçirilməsi və keçirilmiş təlimlərin protokollarının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim olunması | Fövqəladə Hallar Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azərsu" ASC, "Azərişiq" ASC, "Azəriqaz" İB | Z.Rzayeva, Ş.Abdullayev, M.Fətullayev, A.Göyüşov. R.Əliyev, M.Cəbrayılov | Aidiyyəti dövlət qurumlarının əməkdaşları | Yanvar-fevral 2019 |
| 2.4. | Rayon və şəhər icra hakimiyyəti orqanlarının tikintiyə icazə verilməsi ilə əlaqəli məsul əməkdaşları üçün müvafiq maarifləndirici tədbirlərinin keçirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov, Z.Rzayeva | Rayon və şəhər icra hakimiyyəti orqanlarının məsul işçiləri | 29.03.2019 |
| 2.5. | Təchizat müəssisələri tərəfindən müvafiq maarifləndirmə işlərinin aparılması üçün zəruri tədbirlərin görülməsi | "Azərsu" ASC, "Azərişiq" ASC, "Azəriqaz" İB | R.Əliyev, A.Göyüşov, M.Cəbrayılov | Təchizat müəssisələrinin müvafiq yerli əməkdaşları | 29.03.2019 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.** | **Sahibkarlıq subyektləri ilə iş sahəsində** | | | | |
| 3.1. | Tikinti sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin siyahısının dəqiqləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Statistika Komitəsi | Z. Rzayeva | Tikinti təşkilatları | 18.01.2019 |
| 3.2. | Yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işlərinə dair məlumatların sahibkarlara təqdim edilməsi və onlar üçün treninqlərin keçirilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | D.Dövlətxanov | Tikinti təşkilatları | 25.01.2019<br>31.01.2019<br>05.02.2019 |
| 3.3. | Sahibkarlıq subyektlərinin məlumatlılıq səviyyəsinin ölçülməsi üçün onlar arasında ilkin sorğunun keçirilməsinə dair sorğu anketinin hazırlanması və komissiyanın katibliyinə təqdim edilməsi | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Azərsu” ASC, “Azərişıq” ASC, “Azəriqaz” İB | Bütün qrup üzvləri-müvafiq fəaliyyət sahələri üzrə | Tikinti təşkilatları | 21.01.2019<br><br>28.02.2019 |
| 3.4. | Bakı şəhərində “Bir pəncərə” prinsipi üzrə icazələrin verilməsi ilə tanışlıq məqsədilə sahibkarlar üçün əyani tanışlıq turlarının təşkil olunması | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov | Tikinti təşkilatları | 12.02.2019 |
| **4.** | **Aparıcı konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə iş sahəsində** | | | | |
| 4.1. | Yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işləri ilə bağlı Azərbaycan Respublikasında fəaliyyət göstərən Dünya Bankı komandasının əməkdaşlıq etdiyi konsaltinq şirkətləri (xüsusilə “Big 4”) ilə əlaqələrin qurulması üçün müvafiq tədbirlərin görülməsi (dəyirmi masa formatında) | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | D.Dövlətxanov | Konsaltinq şirkətləri | 28.01.2019 |
| 4.2. | Qeyri-hökumət təşkilatlarının siyahısı müəyyənləşdirilərək, onlarla yeni qaydanın tətbiqi və aparılmış sadələşdirmə işləri ilə bağlı görüşün keçirilməsi üçün müvafiq tədbirlərin görülməsi | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | M.Cəbrayılov | Qeyri-Hökumət təşkilatları | 22.02.2019 |

| 5. | Aparıcı kütləvi informasiya vasitələri və digər media qurumları ilə iş sahəsində | | | | |
|---|---|---|---|---|---|
| 5.1. | Yeni qaydanın tətbiqi və sadələşdirmə ilə bağlı məlumatların ictimaiyyətə (kütləvi informasiya vasitələrinə) çatdırılması üzrə tədbirlərin görülməsi | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | M.Cəbrayılov | Kütləvi informasiya vasitələri, o cümlədən, qəzetlər, internet xəbər səhifələri, sosial şəbəkələr | 23.01.2019<br><br>Mütəmadi |
| 5.2. | Bakı şəhərində “Bir pəncərə” prinsipi üzrə icazələrin verilməsi ilə tanışlıq məqsədilə press-turların təşkil olunması | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | M.Cəbrayılov | Kütləvi informasiya vasitələri, o cümlədən, qəzet və jurnallar | 25.01.2019 |